# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

Bakı şəhəri № 231/3 25 aprel 2012-ci il

Auditorlar Palatasının fəaliyyətini əks etdirən internet səhifəsinin vəziyyəti barədə

Auditorlar Palatası Şurasının 2012-ci il üzrə iş planının - "Auditorlar Palatasının fəaliyyətini əks etdirən internet səhifəsinin vəziyyəti barədə" 5-ci bəndinə müvafiq olaraq Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun məruzəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimovun "Auditorlar Palatasının fəaliyyətini əks etdirən internet səhifəsinin vəziyyəti barədə" məruzəsi nəzərə alınsın (əlavə olunur).

2. Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki:

- Auditorlar Palatasının İnternet saytının azərbaycan dilində yenidən hazırlanması bir ay müddətində başa çatdırılsın,
- Auditorlar Palatasının internet saytının rus dilində hazırlanması üç ay müddətində başa çatdırılsın,
- Auditorlar Palatasının internet saytının ingilis dilində hazırlanması beş ay müddətində başa çatdırılsın.

3. Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinin rəisi M.Abbasova, Auditin təşkili və təhlili idarəsinin rəisi M.Hacıyevə, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədova, Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, fəaliyyətlərinə dair müvafiq qaydada rəsmiləşdirilmiş sənədlərin Palatanın internet səhifəsində yerləşdirilməsi üçün bir gün müddətində Aparatın rəhbəri Q.Bayramova təqdim etsinlər.

4. Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palatanın internet səhifəsinin təkmilləşdirilməsi ilə bağlı maliyyə məsələlərinin vaxtında həll edilməsi təmin edilsin.

5. Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, Palatanın internet səhifəsinin təkmilləşdirilməsi və sistematik yenilənməsi ilə bağlı işlərin vaxtında və keyfiyyətlə görülməsinə nəzarətin həyata keçirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**